# "Qəbələ" komandası "Qarabağ"ı iki cavabsız qolla məğlub etmişdir

Oktyabrın 2-də Azərbaycan Premyer Liqasında birinci dövrəyə (VII tur) yekun vurulub.




"Qəbələ" eyniadlı yarışlarda üç mövsümün çempionu olmuş "Qarabağ"ı öz stadionunda qəbul edib. Mövsüm başlayandan qapısından top buraxmayan və son dörd turda xal itirməyən komandamız bu oyunda da ənənəyə sadiq qalıb. "Qəbələ" "Qarabağ"ı iki cavabsız qolla məğlub edərək turnir cədvəlində liderliyi davam etdirib.

Belə ki, oyunun birinci hissəsi komandamızın üstünlüyü ilə keçib. Nəticədə oyunun 11-ci dəqiqəsində "Qəbələ" hesabı açıb. Filip Ozobiç baxımlı zərbə ilə ilk qolun müəllifi olub. Az sonra qonaqların qapısından ikinci top keçib. Baqali Dabo Asif Məmmədovun ötürməsini başla tamamlayaraq ilk hissədə qarşılaşmanın taleyini həll edib-2:0.

Fasilədən sonra "Qarabağ" komandası oyuna daha fəal başlasa da, qapımıza yol tapa bilməyib. Qalan dəqiqələrdə isə qapılara qol vurulmayıb və oyun 2:0 hesabı ilə "Qəbələ"nin qələbəsilə yekunlaşıb.

Beləliklə, "Qəbələ" Premyer Liqanın ilk dövrəsini 19 xalla lider kimi başa vurub. "Qarabağ" isə 13 xalla üçüncü pillədə qalıb. Qeyd edək ki, bu turdan sonra milli komandaların matçları ilə əlaqədar Azərbaycan Premyer Liqasına ara verilib.

***"Qəbələ".***

# Seminar-müşavirə keçirilmişdir



Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə respublika Vətən Müharibəsi Birliyi Qəbələdə «Veteran vəsiqəsi və statusu ala bilməyən müharibə iştirakçılarına vəsiqə alınmasında hüquqi yardım» mövzusunda seminar-müşavirə keçirmişdir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində keçirilən müşavirəni təşkilatın rayon şöbəsinin sədri Əlikram Rəsulov açmışdır.

Sonra Azərbaycan Vətən Müharibəsi Veteranlar Birliyinin əməkdaşları Vahid Abdurəhmanov, Niyazi Quliyev, Akif Abbasov və Qəbələ RİH-nin işçisi Azər Şirinov mövzu ətrafında çıxış etmişlər.

Tədbirdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Qəbələ Rayon şöbəsinin əməkdaşları, Qarabağ müharibəsi veteranları və iştirakçıları iştirak etmişlər.

***«Qəbələ».***

# Qəbələnin şəfalı suları

Azərbaycanda qədim dövrlərdən müalicə-profilaktik məqsədlərlə təbiətin şəfaverici amilləri olan mədən sularından, müxtəlif növ neft və vulkanik palçıqlardan geniş istifadə edilir. Hazırda Böyük Qafqaz dağlarında 30-dan çox termal və soyuq, müxtəlif konsentrasiyalı, kükürdlü və üzvi maddələr tərkibli mineral su yataqları mövcuddur ki, onlardan da 3-ü Qəbələdə yerləşir. Müalicəvi əhəmiyyətinə görə nəinki Azərbaycanda, hətta region ölkələrində birinci sıralarda dayanan "Yengicə" və "Qəmərvan" termal bulaqları hazırda istisu sanatoriyası kimi fəaliyyət göstərir.

"Qəmərvan" bulağı Qəmərvan kəndindən 5 kilometr şimalda, Bum çayının dərəsində, dəniz səviyyəsindən 1388 metr hündürlükdə səthə çıxan termal-mineral sudur. Suyun təbii temperaturu 39,2 dərəcədir. "Qəmərvan" bulağının suyu kükürdlü və dəmirli birləşmələrlə zəngindir.

"Qəmərvan", "Şonqar" və "Yengicə" mineral bulaqlarının suyundan götürülən nümunələr 1965-1966-cı və 1973-1977-ci illərdə Sankt-Peterburqda xüsusi laboratoriyada kimyəvi analizdən keçirilib. Analiz nəticəsində müəyyən edilib ki, "Qəmərvan" suyunun tərkibində silisumlu birləşmələr 30-40 mq/l, kükürd 3-12 mq/l olub, ümumi minerallığı 1,52-1,79 q/l bərabərdir. Kimyəvi və fiziki xassələrinə, müalicəvi əhəmiyyətinə görə "Qəmərvan" mineral bulağı Qərbi Avropada (Priney yarımadasında) məşhur olan Kuldur mineral suyu ilə eynidir. "Qəmərvan" mineral suyundan bir çox xəstəliklərin müalicəsində istifadə etmək üçün 2007-ci ildən rayonun Qəmərvan kəndi ərazisində "Qəmərvan" İsti Su Müalicə-Sağlamlıq Kompleksi fəaliyyət göstərir.

"Şonqar" mineral bulağı isə Qəbələ şəhərinin şimal-şərqində, Dəmiraparan çayının sol sahilində, "Qızılqaya" dağının ətəyində yerləşir. Bulağın suyunun minerallığı yüksəkdir, yəni 40 q/litrə çatır. "Şonqar" hidrokarbonatlı, əhəngli soyuq mineral bulaqdır. Yüksək keyfiyyətli içməli su kimi əhali tərəfindən geniş istifadə olunur. 2000-ci ildə "Şonqar" bulağından Bakı-İsmayıllı-Qəbələ-Şəki avtomobil yolunun kənarına, yəni Dəmiraparan çayı üzərindəki körpünün yanınadək su xətti çəkilib və orada "Heydər bulağı" kompleksi yaradılıb.

"Yengicə" mineral bulağı isə Yengicə kəndinin şimal şərqində, böyük çayın dərəsində yerləşir. Suyunun tərkibində hidrokarbonatlı natrium, maqnezium və əhəng var. Onun ümumi minerallığı 0,48 q/l-dır və soyuq kükürdlü sudur. "Qəmərvan" suyu kimi "Yengicə" suyunun müalicəvi əhəmiyyəti də yerli və ətraf rayonların əhalisinin diqqətini özünə cəlb edib. Yüksək keyfiyyətə malik olan "Yengicə" suyu "dağ daşı" ilə süni şəkildə qızdırılmaqla bir çox xəstəliklərin müalicəsində geniş istifadə olunur. Daşla qızdırılmış "Yengicə" mineral suyunun ion tərkibi olduqca zənginləşir və insan orqanizmi üçün faydalı olan 10-a qədər kimyəvi elementin birləşməsindən ibarət məhlula çevrilir. Bütün bu keyfiyyətləri nəzərə alınaraq 2007-ci ildə Yengicə kəndində müasir tələblərə cavab verən "Yengicə" İstisu Müalicə-Sağlamlıq Kompleksi yaradılıb. Ötən il müalicə kompleksinin iki mərhələsi, yəni "Qafqaz Yengicə Termal Hotel və SPA" mərkəzinin inşa işləri başa çatdırılıb və Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Qeyd edək ki, Qəbələyə gələn yerli və xarici turistlər rayondakı müasir otel, istirahət və əyləncə mərkəzlərində dincəlməklə yanaşı, istisu müalicə ocaqlarına da müraciət edirlər. Bu da Qəbələdə müalicə turizminin perspektivindən xəbər verir.

***«Qəbələ».***

## ELAN

«Qəbələ» qəzeti 10 noyabr 2016-cı il tarixdə redaksiyanın nəzdində fəaliyyət göstərəcək ədəbi məclisin təsis yığıncağını keçirəcəkdir.

Yığıncağa ədəbi yaradıcılıqla məşğul olan yerli yazarlar dəvət olunurlar.

Tədbir saat 10-da Qəbələ Mədəniyyət Mərkəzində başlanacaqdır.

## ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 10 iyun 1998-ci il tarixdə 11 saylı qərarla Böyük Pirəli kənd sakini **Dəmirova Cəmilə Məhəmməd qızına** verilmiş JN- 168 F nömrəli (kodu 40602018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ şəhər sakini **Muradov Rövlan Rövşən oğluna** 2014--2015-ci tədris ilndə Qəbələ şəhər 3 saylı tam orta məktəbini bitirməsi haqqına 16 iyul 2015-ci il tarixdə verilmiş AN seriyalı, 424168 nömrəli **attestat** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Aqrokimya Laboratoriyasının işçiləri keçmiş iş yoldaşları **Mehriban Əliyevaya** anası

**ƏSMAYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

«PAKOİL» yanacaqdoldurma məntəqəsinin işçiləri iş yoldaşları **Mehriban Əliyevaya** anası

**ƏSMAYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qəbələ Rayon İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Sevinc Əhmədovaya** qayınatası

**HACI SƏHRAB ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qəbələ Rayon İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Kəmalə Əsədovaya** qayınanası

**GÜLLÜ MÜƏLLİMƏNİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Redaktor
V. A. Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1800.
Oxucu məktubları geri qaytarılmır.